**Firiş Balış oğlu Şəkərəliyev**
**UOT: 338; JEL: G29**

# Beynəlxalq təcrübə əsasında Dövlət Audit İnstitutunun inkişafı

***Xülasə***

*Məqalədə dövlət audit institutunun müasir tələblər baxımından inkişafı zərurətləri göstərilir. Dövlət auditinin inkişafının təmin edilməsində iqtisadi inkişaf proqramları ilə bağlılığa diqqətin artırılması vacibliyi ifadə edilir. Məqalədə beynəlxalq təcrübə əsasında ölkədə dövlət audit institutunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri irəli sürülür.*

***Açar sözlər**: dövlət auditi, beynəlxalq təcrübə, iqtisadi inkişaf, dövlət proqramları*

## Giriş

Azərbaycanın müasir inkişafı dövlət quruculuğunun və onun əsası kimi iqtisadiyyatın təşkili və tənzimlənməsinin müasir tələblər baxımından təkmilləşdirilməsini zəruriləşdirməkdədir. Xüsusilə də bu prosesdə dövlət auditinin əhəmiyyətli rolu nəzərə alınmaqla bu sistemin də beynəlxalq təcrübə baxımından təkmilləşdirilməsi öz vacibliyi ilə çıxış edir. Azərbaycanda qəbul edilən "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası" və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ində də auditin bir müasir bazar infrastrukturu və iqtisadiyyatın inkişafına təsir edən mühüm bir sahə kimi inkişafı öz aydın mövqeyi ilə fərqlənir. Beynəxalq təcrübə əsasında dövlət audit institutunun, yəni ölkənin ali audit institutunun fəaliyyətinin inkişafı xüsusi zərurətdən irəli gəlir.

## Dövlət audit institutunun fəaliyyətinin təkmilləşdirilməsinin beynəlxalq aspektləri



Ali Audit İnstitutlarının (AAİ) müstəqilliyinin gücləndirilməsi, həmçinin Lima və Mexiko Bəyannamələrinin tanınmasında AAİ-lərin birgə səylərinin ən mühüm nailiyyəti BMT Baş Assambleyasının 22 dekabr 2011-ci ildə "Ali Audit Qurumlarının gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında" qətnamə qəbul etməsi olmuşdur. Mövcud qətnamə üzv dövlətləri və müvafiq BMT qurumlarını potensialın artırılması yolu ilə gücləndirilmiş AAİ-lər vasitəsilə səmərəliliyi, cavabdehliyi, effektivliyi və şəffaflığı təmin etməklə qabaqcıl idarəçiliyi möhkəmləndirmək sahəsində INTOSAI ilə əməkdaşlığa çağırır. BMT-nin AAİ-lərə göstərdiyi növbəti dəstək 19 dekabr 2014-cü il tarixində "Ali Audit Qurumlarının gücləndirilməsi vasitəsilə dövlət idarəetməsinin səmərəliliyinin, cavabdehliyinin, effektivlik və şəffaflığının inkişaf etdirilməsi və gücləndirilməsi haqqında A/RES/69/228 saylı qətnamənin qəbul edilməsi ilə bağlıdır. Ali Audit İnstitutlarının müstəqilliyinin, Lima və Mexiko Bəyannamələrinin, eyni zamanda, üzv dövlətlər və BMT-nin müvafiq qurumları arasında əməkdaşlıqların davam etdirilməsi və gücləndirilməsinin, o cümlədən dövlət mühasibatlıq sistemlərinin təkmilləşdirilməsinin, gücləndirilmiş AAİ-lər vasitəsilə səmərəlilik, cavabdehlik, effektivlik və şəffaflığın təmin edilməsi ilə bütün səviyyələrdə qabaqcıl idarəçiliyi inkişaf etdirmək üçün INTOSAI-la birgə potensialın qurulmasının, AAİ-lərin müstəqilliyinin və potensialının artırılmasının, dövlət mühasibatlığı və auditi ilə bağlı potensialın yaradılmasının, bilik və qabaqcıl təcrübədə inkişaf etməkdə olan ölkələrə dəstək göstərmək üçün davamlı beynəlxalq əməkdaşlığın mühümlüyü müəyyən olunmuşdur. Bütün belə kimi tədbirlər biləvasitə dövlət audit institutunun peşəkarlığının, geniş profilli fəaliyyətinin artırılmasına yönəlməsi ilə də əhəmiyyət kəsb edir.

*© Firiş Balış oğlu Şəkərəliyev. AMEA İqtisadiyyat İnstitutu, dissertant, E-mail: firis. sekerelyev@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Beynəlxalq təcrübə əsasında dövlət audit institutunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri**

Azərbaycanın müasir inkişafı dövlət quruculuğunun və onun əsası kimi iqtisadiyyatın təşkili və tənzimlənməsinin müasir tələblər baxımından təkmilləşdirilməsini zəruriləşdirməkdədir. Xüsusilə də bu prosesdə dövlət auditinin əhəmiyyətli rolu nəzərə alınmaqla bu sistemin də beynəlxalq təcrübə baxımından təkmilləşdirilməsi öz vacibliyi ilə çıxış edir. Azərbaycanda qəbul edilən "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası" və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ində də auditin bir müasir bazar infrastrukturu və iqtisadiyyatın inkişafına təsir edən mühüm bir sahə kimi inkişafı öz aydın mövqeyi ilə fərqlənir. Məhz müasir təcrübə də nəzərə alınmaqla dövlət auditinin inkişafı ilə bağlı bir vəzifə olaraq aşağıdakı istiqamətlərə diqqətin artırılması önəmlidir:

- İdarəetmə orqanlarının və dövlət mülkiyyətində olan subyektlərin maliyyə hesabatığının keyfiyyətinə auditin təsirinin gücləndirilməsi;
- Maliyyə hesabatlarının tərtibi və burada əks olan informasiyaların dəqiq və dürüstlüyünün icrası ilə bağlı audit yanaşmalarının təkmilləşdirilməsi;
- Dövlət strukturlarının və dövlət mülkiyyətində olan qurumların maliyyə-mühasibat uçotunun aparılmasında və maliyyə hesabatının tərtib edilməsində qanunvericiliyin tələblərinə riayət edilməsinin təmin olunması;
- Müvafiq qurumlarda vergi uçotunun təşkili və aparılmasına nəzarətin artırılması və bu sahədə müasir metodlardan istifadə edilməsi;
- Dövlət büdcəsinə və büdcədənkənar fondlara vergi və digər ayırmaların dürüstlüyünə və bu hesablaşmaların müvafiq qayda və tələblərə uyğun icrasının mütəmadi yoxlanılması;
- Dövlət büdcəsinin gəlir və xərc maddələrinin formalaşmasının əsaslandırlmasının qiymətləndirilməsi və bu istiqamətdə şəffaflığın təmin edilməsi;
- Dövlət orqan və təşkilatlarında (dövlət mülkiyyətində olan subyektlərdə) maliyyə hesabatlarının qanunvericiliyə uyğunluğunun qiymətləndirilməsi və mövcud risklərin azaldılmasına nail olunması;
- Ölkədə iqtisadi və maliyyə informasiya sisteminin şəffaflığının artırılmasına nail olunması;
- Dövlət proqram və layihələrinin qəbulu və icrası prosesinin mümkünlük müddətlərinin və icra səviyyəsinin səmərəliliyinin təmin edilməsinin qiymətləndirilməsi;
- Təşkilat və qurumlarda fəaliyyətin nəticəlik baxımdan auditinin daha səmərəli metodlara əsaslandmaqla aparılması;
- Çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə istiqamətində qəbul olunmuş hüquqi-normativ bazaya uyğun tələblərin icrasının auditinin təmin edilməsi;
- Beynəlxalq audit standartlarının və bu sahədə mütərəqqi metodologiyanın ölkədə tətbiqinin təmin olunması.

Müasir təcrübə dövlət auditinin aparılmasında büdcə proqram metodunun tətbiqinin zəririliyini əsaslandırmaqdadır və belə yanşmanın ölkədə tətbiqi büdcə vəsaitlərinin səfərbərliyi və istifadəsi baxımından daha vacibliyi ilə çıxış edir. Ali Audit İnstitutlarının beynəlxalq təşkilatı olan INTOSAI-ın Lima Bəyannaməsinin (2008) başlıca məqsədi - müstəqil dövlət auditinin səmərəli və məqsədli təşkinə yönəlmişdir. Bəyamnnamənin əsas müddəaları kimi qanunilik auditi, düzgünlük auditi və səmərəlilik auditi xüsusi ilə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fərqləndirilir ki, belə yanaşma da hər bir dövlətin malik olduğu resursların və maliyyə vəsaitlərinin dövlət, cəmiyyət tələbləri baxımından məqsədəuyğun və səmərəli proqramlar üzrə istifadəsini özündə ehtiva edir. Dövlət proqramlarının qiymətləndirilməsinin auditinin keçirilməsi və bu prosesdə beynəlxalq təcrübədən istifadə olunması artıq öz aktuallığı ilə qəbul olunmalıdır. Dövlət proqramlarının auditi özündə aşağıdakı istiqamətləri əhatə etməlidir:

- Dövlət proqramlarının, icra olunan əməliyyatların və qiymət siyasətinin auditi;
- İqtisadi və maliyyə göstəricilərinin auditi;
- Dövlət orqanlarının (dövlət mülkiyyətində olan subyektlərin) fəaliyyətinin maliyyələşdirilməsinin səmərəliyinin məqsədliyinin qiymətləndirilməsi;
- Dövlət tədbirlərinin və bu sahədə müəyyən edilən təkliflərin, fəaliyyətin əhəmiyyətliliyinin əsaslandırılması.

Dövlət auditinin müasir tələblər baxımından fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə strateji auditin tam genişliyi ilə tətbiqini ön plana çəkir və belə yanaşma artıq beynəlxalq təcrübədə də özünü doğrultmaqdadır. Strateji audit prosesində strateji planlaşdırmanın tətbiqi önəmli olmaqla, aşağıdakı mərhələləri əhatə etməlidir:

- Auditin potensial əhatə sferasının müəyyən edilməsi;
- Audit sahələrinin seçim meyarlarının müəyyən olunması üçün seçim proqram təminatının hazırlanması.

Strateji audit - strateji planlaşdırmanı zəruriləşdirir və bu baxımdan auditin aparılması onun prioritet və nəticələrinin qiymətləndirilməsi, audit üçün daha çox əhəmiyyət kəsb edən potensial sahələrin seçimi və tədqiqi ilə bağlı olmalıdır. Auditin aparılmasında strateji planlaşdırmanın tətbiqi hazırki və gələcək dövrlərin fəaliyyətləri ilə bağlı olmalı və bu araşdırmada zəruri proqnozların, müqayisəli qiymətləndirmələrin həyata keçirilməsi vacibdir. Həmçinin, strateji planlaşdırmanın informaiysiya əsaslandırılmasının müvafiq sxem, qrafiq və diaqramlar üzrə təşkili də əhəmiyyətlidir. Beynəlxalq təcrübədə büdəcənin məqsədli proqramları üzrə icrasına və auditin də bu baxımdan təşkilinə üstünlük verirlər. Büdcə dövrünün əhatə dairəsi cari və orta müddətlər üzrə götürülsə də, auditin yalnız bu dövrlə əhatə olunması qaneedici hesab olunmur. İnkişaf prosesləri və iqtisadi münasibətlərin dövlətlərin inkişafına təsiri artıqca, büdcə proqram və proqnozlarının uzunmüddətli dövrlər üzrə müəyyən olunması və belə yanaşmada iqtisadi göstəricilərin əsaslandırılması və təminatı xüsusi audit qiymətləndirilməsinin həyata keçirilməsini aktuallaşdırır. Artıq uzunmüddətli büdcə maliyyələşdirilməsinin auditi məqsədli proqramların səmərəliyi, qənaətbəxşliyi və nəticələri üzrə təmin edilməlidir.

Azərbaycanda həyata keçirilən dövlət proqram və layihələrinin orta dövr müddəti beş ili əhatə etsədə, lakin daha uzunmüddətli proqramlar, startegiyalar və bu əsasda maliyyə-büdcə resurslarının səfərbər olunması öz əhəmiyyətliliyi ilə çıxış edir. Təcrübə deməyə əsas verir ki, dövlət auditinin əsas fəaliyyət istiqamətinin bu yönümlü təşkili də vacib hesab olunmalıdır. Dövlət proqramlarının auditinin əsas məqsədi - onların göstəricilərinin düzgünlüyünün və bu tədbirlərinin məqsədəuyğun həyata keçirilməsinin təmin edilmə səviyyəsinin qiymətləndirilməsi ilə bağlı olmalıdır. Dövlət proqramlarının:

- optimal sosial və iqtisadi əhəmiyyətli nəticələrə nail olunmasının təmininin müəyyən olunması;
- əvvəlcədən planlaşdırılmış hədəflərə çatılması zamanı yaranan problemlərin aradan qaldırılması;
- lazım gəldikdə büdcədə yaranan uyğunsuzluqların aradan qaldırılması;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- yarana biləcək risk və kənarlaşamların aradan qaldırılması dövlət auditinin əsas fəaliyyət istiqamətlərindən biri olmalıdır.

Məqsədli büdcə proqramlaırnın auditinin əsas vəzifələrinə aşağıdakıların aid olunması daha vacib hesab olunmalıdır:

- Dövlətin məqsədli proqram və layihələrinin hazırlanma səviyyəsinin keyfiyyətinə nəzarət;
- Dövlətin məqsədli proqram və layihələrinin icra vəziyyətinin qiymətləndirilməsi;
- Dövlətin məqsədli proqram və layihələrinin icrası ilə bağlı mövcud problemlərin, risklərin və kənarlaşmaların səbəblərinin və təsir dairəsinin müəyyən edilməsi;
- Dövlətin məqsədli proqram və layihələrinin icra nəticələrinin və səmərəliliyinin auditi.

Məqsədli dövlət proqram və layihələrinin auditi eyni zamanda, dövlət idarəçiliyinin qənatliliyinin, effektivliyinin və nəticəliyinin yoxlanılmasına yönəlməlidir və belə yanaşmada səmərəlilik amili əsas məqam kimi götürülməlidir. Belə ki, müvafiq istiqamətli səmərəlilik auditi yalnız xüsusi maliyyə əməlliyyatlarını deyil, həmçinin təşkilati və inzibati sistemlər də daxil olmaqla dövlət qurumlarının fəaliyyətinin bütün aspektlərini əhatə etməlidir. Hesab edirik ki, dövlət audit institutu tərəfindən aparılan auditlərin məqsədləri kimi maliyyə: idarəçiliyinin qanuniliyi, düzgünlüyü, qənaətliliyi, effektivliyi və nəticəliliyi eyni dərəcədə vacibdir. Bununla bağlı olaraq da dövlət auditi öz fəaliyyətinin təşkilində qarşıya qoyduğu məqsədlərin prioritetliyini və hədəflərini müəyyən etməlidir.

Büdcə layihələrinə və onun istifadəsinə (büdcə daxilolmaları və xərc maddələri, göstəriciləri üzrə) audit rəyi verilərkən belə yanaşmanın əsas götürülməsi daha məqsədəuyğun hesab olunur. Nəticə etibarı ilə mövcud yanaşmanın tətbiqi büdcə maddə və göstəricilərinin əsaslndırlması məqsədi ilə zəruri audit monitorinqlərinin təşkilini və aparılmasını ön plana çəkir. Audit monitorinqləri bilavasitə məqsədli dövlət proqram və layihələrin qəbulu-icrası ilə büdcə resurslarının səfərbərliyi-istifadəsi əlaqəliliyi əsasında təşkil olunmalı, bununla bağlı müvafiq göstəricilər sistemi üzrə bağlılıq müəyyən edilməlidir. Mövcud yanaşma Ali Audit Qurumlarının Beynəlxalq Standartlarının (**ISSAI**) və Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) təməl prinsipləri ilə də uyğunluq təşkil edir. Dövlət proqram və layihələrinin icrasına və bu baxımdan dövlət orqanlarının fəaliyyətinə tətbiq olunan auditi aşağıdakı mərhələlər üzrə qruplaşdırmaq məqsədəuyğundur:

- Dövlət siyasətinin həyata keçirilməsində yalnız mümkün tələblərin müəyyən edilməsi. Bu baxımdan qanunvericilik sənədlərinin icrasının, müvafiq dövlət qurumlarının birbaşa və proqramlarla bağlı fəaliyyətinin monitorinqi mümkündür. Əsaəsn də bu fəaliyyət prosesinin audit monitorinqi: iqtisadi, maliyyə, hüquqi aspektləri əhatə etməlidir.
- Dövlətin iqtisadiyyata müdaxilə (birbaşa və ya dolayısı) səviyyəsinin və bunun məqsədli dövlət proqram və layihələrinin icrasına təsirlərinin monitoriqinin keçirilməsi;
- Məqsədli dövlət proqram və layihələrinin ölkədəki sosial-iqtisadi vəziyyətə və iqtisadiyyatın ayrı-ayrı sahələrinə təsirlərinin monitorinqi;
- Məqsədli dövlət proqram və layihələrinin audit monitorinqinin formal xarakterdən uzaqlaşdırılaraq məcburi xarakterli keçidinin təşkili;
- Məqsədli dövlət proqram və layihələrinin auditinin dövlət və korporativ idarəetmə sisteminin təşkili səviyyəsinin qiymətləndirilməsi üzrə aparılması.

Məqsədli dövlət proqram və layihələrinin nəticəyə istiqamətlənmiş audit monitorinq və qiymətləndirmə sisteminin təşkili və aparılma mərhələlərinin aşağıdakı formada təşkili daha məqsədəuyğun hesab olunmalıdır:

- Məqsədli dövlət proqram və layihələrinin nəticəyə istiqamətlənmiş monitorinq və qiymətləndirmə sisteminin aparılması üçün mühitin yaradılması;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Dövlət səviyyəsində bu prosesin təşkilinin hüquqi-metodoloji əsaslarının qəbul edilməsi;
- Audit nəzarət və qiymətləndirmə nəticələrin razılaşdırılması;
- Strateji nəticələrin ölkənin strateji prioritetlərinə uyğun olaraq formalaşdırılmasının əsas tələb kimi müəyyən olunması;
- Audit monitorinq nəticələri üzrə əsas göstəricilər sisteminin müəyyən olunub, təsdiq edilməsi;
- Audit monitorinq və nəticə göstəriciləri üzrə məlumat və informasiya sisteminin yaradılması;
- Mövcud proses zamanı hazırlanmış nəticə göstəriciləri nəzərə alınmaqla dövlət proqram və layihələrinin icrası üzrə tərtib olunan planlara zəruri əlavə və düzəlişlərin edilməsi;
- Aparılan təhlil və qiymətləndirmələr əsasında tərtib olunan hesabatlar əsas götürülməklə monitorinq nəticələri üzrə rəyin hazırlanması.

Məqsədli dövlət proqram və layihələrinin nəticəyə istiqamətlənmiş audit monitorinqinin həyata keçirilmə mərhələlərinin ardıcıllığı gözlənilsə də, lakin belə yanaşmada səmərəli, yaradıcı istiqamətlilik əsas götürülməli, zərurət yarandıqca bir neçə tədbir və mərhələnin eyni vaxt müstəvisində icrası da mümkün hesab olunmalıdır. Monitorinq və qiymətləndirmə sisteminin dəqiq və məqsədli reallaşdırılması özlüyündə: bu istiqamətdə fəaliyyət mühitinin yaradılmasını; resurs və vəsaitlərin mövcudluğunu; siyasi-iqtisadi stabilliyin təmin olunmasını şərtləndirir. Bir çox ölkələrdə mövcud olan qeyri-sabit siyasi və iqtisadi durum, əsasən də iqtisadi-maliyyə böhranlarının təsiri dövlət proqram və layihələri üzrə səmərəli dövlət audit sisteminin təşkilini qeyri-mümkünləşdirməkdədir. Məqsədli dövlət proqram və layihələrinin auditi dövlət orqan və təşkilarları tərəfindən hər hansı təsir və təziqlərin olmaması şəraitində daha səmərəli nəticə verər. Mövcud auditlərin fəaliyyət və əhatə sferası müəyyən qədər genişliyi ilə fərqləndiyinə görə auditin aparılma üsulları və forması da spesfiq olmalıdır. Belə ki, audit obyektlərinin və metodlarının müəyyən model əsasında seçilməsi mümkündür. Həmçinin, maliyyə idarəçiliyinin keyfiyyəti və düzgün idarəetmə qərarların senariliyi varinatıda belə yanaşmanın mümkünlüyünü göstərir. Məqsədli dövlət proqram və layihələrinin auditi müvafiq tədbirlərin həyata keçirilməsini təmin edəcək maliyyə və digər resursların mövcudluğunu müəyyən etməli, bu zaman cəlb olunacaq imkanların mənbələr üzrə balanslaşdırılmış yönümlüyünə xüsusi qiymət verilməlidir. Digər tərəfdən, büdcə və büdcədən kənar mənbələr üzrə müvafiq məqsədlər üçün cəlb olunan vəsaitlər də ayrılıqda auditinin qiymətləndirilmə obyekti olmalıdır. Belə ki, büdcə gəlirlərinin, o cümlədən də xərclərinin öz məqsədli, əsasən də cari və perspektiv dövrlər, sosial, dövlət idarəetmə və digər xərclər üzrə istiqamətliyi auditin ayrıca tədqiqat obyektini təşkil etməlidir. Məqsədli dövlət proqram və layihələrinin auditi proqram və layihələrin son nəticə - səmərə göstəricilərinin qiymətləndirilməsinin təmin olunması baxımdan da həyata keçirilməlidir. Xüsusilə də belə yanaşma yalnız proqram və layihələrin başa çatma dövründə deyil, mütəmadi olaraq cari dövrlər üzrə təmin olunmalıdır.

**Nəticə**

Beynəlxalq təcrübə nəzərə alınmaqla, büdəcənin məqsədli proqramlar üzrə icrasına və auditin də bu baxımdan təşkilinə üstünlük verilməlidir. Büdcə dövrünün əhatə dairəsi cari və orta müddətlər üzrə götürülsə də, auditin yalnız bu dövrlə əhatə olunması qaneedici hesab olunmamalıdır. İqtisadi inkişaf prosesi artıqca, büdcə proqram və proqnozlarının uzunmüddətli dövrlər üzrə müəyyən olunması və belə yanaşmada iqtisadi göstəricilərin əsaslandırılması və təminatı xüsusi audit qiymətləndirilməsinin həyata keçirilməsini ön plana



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

çəkməlidir. Artıq uzunmüddətli büdcə maliyyələşdirilməsinin auditi məqsədli proqramların səmərəliyi, qənaətbəxşliyi və nəticələri üzrə təmin edilməlidir.

**Ədəbiyyat**

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası” (2012-2020-ci illər). Bakı, 2013.
3. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. Bakı, 2016.
4. Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2007.
5. “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.

***Фириш Балыш оглу Шакаралиев***

***Развитие государственного института аудита на основе международного опыта***

***Резюме***

*В статье указывается необходимость развития государственного института аудита с точки зрения современных требований. В обеспечении развития государственного аудита подчеркивается важность повышения внимания к связанности с программами экономического развития. В статье рассматриваются направления совершенствования деятельности государственного института аудита в стране на основе международного опыта.*

***Ключевые слова:*** *государственный аудит, международный опыт, экономическое развитие, государственные программы*

***Firish Balish Shakaraliyev***

***Development of the state audit Institute on the basis of international experience***

***Summary***

*The article shows the development needs of the state audit Institute in terms of modern requirements. In ensuring the development of state audit, it is important to increase attention to the relevance of economic development programs. On the basis of international experience, the article focuses on improving the activities of the state audit Institute in the country.*

***Keywords****: state audit, international experience, economic development, state programs*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 13.12.2019.***
***Çapa qəbul olunub: 16.12.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*